# Tarixi və mədəni irsi ehtiva edən Xankəndidən dünyaya çağırışlar

*Dünya çalxalanır, iddialar havada dolaşır, müharibələr planetin nəfəsinə zəhər qatır, şəhərlər, kəndlər dağılır, dinc insanlar öz evlərində qətlə yetirilir, heç bir günahı olmayan uşaqlar yetim qalır, güclü gücsüzü əzir, nüvə raketləri insanlığı təhdid edir. Belə çətin və ziddiyyətli dövrdə Azərbaycan dünyaya sülh, sabitlik, əməkdaşlıq mesajları verir, üzv olduğu beynəlxalq təşkilatların Zirvə görüşlərini keçirir. Halbuki beş il bundan əvvəl Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa etmək üçün işğalçı Ermənitana və onun havadarlarına qarşı döyüş aparırdı.*

30 il işğal altında qalmış şəhər və kəndlər etnik nifrət zəminində dağıdılmış, dini və mədəni irs yer üzündən silinmiş, qəbiristanlıqlar şumlanmışdı. Qalib Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, fədakarlığı, diplomatik səriştəsi və sərkərdə hünəri ilə erməni işğalına birdəfəlik son qoyuldu. İndi bütün ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır. Xankəndidəki mərkəzi meydanda 2023-cü ildə üçrəngli bayrağımızı zirvəyə qaldıran Prezidentimiz bütün dünyaya, ermənipərəst qüvvələrə, bəzi dövlətlərə mənəviyyat, həqiqət, ədalət dərsi keçdi və bildirdi ki, Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt - 1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə, 1 milyon insan evsiz-eşiksiz qalmış, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyini görür.

Bütün bu haqsızlıqları, işğalı, hərbi təcavüzü, qəsbkarlığı, erməni iddialarını, xam xəyalları Azərbaycan öz gücü ilə döyüş meydanında qan tökərək, can qurban verərək aradan qaldırdı. Otuz ildən artıq dünyanı öz uydurma və yalanlarına inandırmağa çalışan erməni separatçılarının Xankəndidəki "mərkəzi qərargahı", separatizm yuvası rolunu oynamış "hökumət binası"nda indi Azərbaycan bayrağı dalğalanır. Bu gün on minlərlə, yüz minlərlə insanın həyatına son qoyan müharibələrin səbəblərindən biri də tarixi təhrif edərək torpaq iddiası ilə yaşayanların məkr və cinayət dolu əməlləridir. Məhz Qarabağ münaqişəsinin kökündə də erməni millətçilərinin tarixi təhrif etmək cəhdi və Azərbaycan torpaqlarına sahib olmaq iddiası dururdu. Amma bir məsələ də var ki, gerçəklik və reallıqları öz səhifələrinə yazan tarix heç vaxt ləkə götürmür. Xankəndidə yaddaşın intibahı baş verir, hərbi-diplomatik zəfərin möhtəşəmliyi daha yaxından hiss olunur. Keçmiş sovetlər birliyinin Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdığı gün (7 iyul 1923-cü il) həmin ərazilərdə 100 ildən sonra eyni ayın eyni günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradıldı. Müzəffər Prezidentimiz tarixin və zamanın haqsızlığını qətiyyət və cəsrəatlə aradan qaldırdı. İndi hər iki bölgədə misli görünməyən quruculuq və bərpa aparılır, Böyük Qayıdış uğurla davam edir. 2023-cü il oktyabr ayının 15-də Qalib Ali Baş Komandan Xankəndi şəhərində, Ağdərədə, Əsgəranda, Xocalıda, Xocavənddə Zəfər bayrağımızı ucaltdı və Xankəndinin mərkəzində, Azərbaycanın pulu ilə tikilmiş binanın qarşısında çıxış etdi. Tarix yazan Liderimizin çıxışı müasir Azərbaycanın qəhrəmanlıq tarixi kimi dərsliklərə salınmalı, indiki və gələcək nəsillər bu şərəfli dönüşü öyrənməlidirlər. Xankəndi XVIII əsrin axırlarında Qarabağ xanlarının istirahət etmələri üçün salınan yaşayış məskəni olub. Xanlığın paytaxtı Şuşa şəhərindən 10 kilometr aralıda, dağların ətəyində, meşələrin əhatəsində, dağ çaylarının keçdiyi səfalı ərazidə salınan yurd yeri əvvəlcə Xanın kəndi adlandırılıb. İlk illərdə yeni yaşayış məskənində xan ailəsi və onların yaxınları yaşayıb. Təbiətinə və havasına görə Xankəndi başqa yerlərdən fərqlənir. Dünyanın cənnət guşələri çoxdur, ancaq Xankəndi elə cənnətin özüdür...




Qədim yurd yerimiz Xankəndidə erməni separatizminin izləri silinir, şəhər yenidən milli ruha və ovqata köklənir. Xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzi olaraq Xankəndi şəhərində Zəfər parkının salınması istiqamətində işlər davam etdirilir. Möhtəşəm Zəfər parkının təməli Prezident İlham Əliyev tərəfindən bu ilin fevralında qoyulub. Sahəsi 8,3 hektar olacaq parkın ərazisində işğal dövründə inşa edilmiş, eləcə də istismara yararsız bir sıra tikililər sökülüb. Parkın mərkəzində Qələbəmizin rəmzi olan Zəfər Tağı tikilir. Onun hündürlüyü Vətən müharibəsi günlərinin sayına uyğun olaraq 44 metr olacaq. Tağın üst hissəsində ziyarətçilər üçün şəhərə baxış meydançası yaradılır. Parkın mərkəzindəki meydançadan Zəfər Tağına qədər 44 rəmzi pilləkən də nəzərdə tutulub. Bu pilləkənlərdə Vətən müharibəsinin hər günü üzrə azad olunmuş yaşayış məntəqələrinə dair məlumatlar əks etdiriləcək. Abidənin üst hissəsinə - baxış meydançasına yaşlı insanların, uşaqların və fiziki məhdudiyyətli şəxslərin rahat qalxması üçün liftlərin quraşdırılması nəzərdə tutulub. Layihəyə uyğun olaraq parkda geniş yaşıllıq zolaqları salınacaq. Parkın ərazisindəki əlavə 300-dən çox ağac və 9 mindən çox müxtəlif növ dekorativ kollar əkilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Zəfər parkında görülən tikinti işləri ilə tanış olub.

Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə Prezident İlham Əliyev dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıb. Qonaqlar və qardaş xalqların Liderləri Xankəndi ilə, burada aparılan geniş miqyaslı işlərlə tanış olublar. Zirvə görüşündə Prezident İlham Əliyev deyib: "Ermənistan Azərbaycan ərazilərinin təxminən 20 faizini 30 ilə yaxın işğal altında saxlamış, etnik təmizləmə həyata keçirmiş, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin salmışdır. Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanı döyüş meydanında darmadağın edərək 300-dən çox şəhər və kəndi azad etdi. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktı imzalamağa məcbur oldu. İşğal dövründə Ermənistan şəhər və kəndlərimizi, mədəni və dini abidələrimizi yer üzündən silmişdir. 67 məsciddən 65-i Ermənistan tərəfindən yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb, donuz və inək tövləsi kimi istifadə olunub. Bu, İslam dininə və dünya müsəlmanlarına qarşı hörmətsizlik və təhqir idi. Qəbiristanlıqlar da vandalizmə məruz qalıb, dağıdılıb, qəbir daşları talanaraq Ermənistana aparılıb. İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır".

Qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvə görüşünün keçirildiyi Xankəndi şəhərinin Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcəyini vurğulayıb: "Can Azərbaycanın səmimi qonaqpərvərliyi ilə bu gözəl şəhərdə bizi qəbul edən Prezident İlham Əliyev qardaşım başda olmaqla bütün rəsmi şəxslərə və Azərbaycan xalqına təşəkkür edirəm. Tədbirimizin işğaldan azad edilmiş bir şəhərdə - Xankəndidə keçirilməsi Zirvə görüşümüzə xüsusi bir əhəmiyyət və məna qazandırır. İlham qardaşımın uzaqgörən yanaşması ilə bu qədim şəhərin Qafqazın yeni inkişaf və sülh mərkəzi olacağına ürəkdən inanıram". Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının uğurla bərpasından və belə mötəbər Zirvə görüşünün tarixi və qədim Azərbaycan şəhəri Xankəndidə təşkil edilməsindən məmnunluğunu bildirib: "İlk növbədə, bu mühüm Zirvə görüşünə ev sahibliyi edən Azərbaycan Respublikasının Prezidenti qardaşım cənab İlham Əliyevə və İqtisadi Əməkdaşlıq Təşkilatına Baş katib Əsəd Məcid Xanın timsalında təşəkkürlərimi bildirirəm. Bu görüşün qardaş ölkə Can Azərbaycanın tarixi və qədim şəhəri Xankəndidə keçirilməsi bizi xüsusilə məmnun etmişdir. Beş illik qısa müddətdə bu Vətən torpaqlarının Qarabağ Fatehi cənab İlham Əliyevin liderliyi və bənzərsiz xalq həmrəyliyi ilə yenidən dirçəldilməsi bizləri də qürurlandırmaqdadır. Qarabağ Azərbaycan, Azərbaycan Qarabağdır!".

ECO üzvü olan ölkələrin dövlət və hökumət başçıları da Qarabağda, xüsusilə Xankəndidə aparılan misilsiz quruculuğu yüksək qiymətləndiriblər. Cəsarətin, iradənin, qəhrəmanlığın, inkişafın və dirçəliş ruhunun qüdrətli rəmzi, nadir tarixi və mədəni irsi təcəssüm etdirən gözəl Xankəndi şəhərində keçilrilmiş ECO-nun 17-ci Zirvə görüşü dünyaya sülh və əməkdaşlıq mesajları ötürdü. Həmin çağırışların Xankəndidən eşidilməsi isə çox böyük siyasi məna daşıdı.

**Salman ALIOĞLU,**
**"Respublika".**